# Planlaşdırılmış erməni təxribatı - Sumqayıt hadisələri

**Sumqayıt hadisələrindən 37 il keçir. Cinayətkarlar da, onların əməllərinin mahiyyəti, cinayəti hansı məqsədlə törətdikləri də məlumdur. XX əsrin sonlarında məkrli ermənilərin planı yenə də münaqişə yaradaraq, hər cür cinayətlərə əl ataraq aranı qızışdırmaq, qan-qada salmaq, qırğınlar, qətliamlar, soyqırımları törətmək hesabına olsa belə, Azərbaycandan yeni ərazilər qoparmaq idi.**

"Dənizdən-dənizə böyük Ermənistan" xülyalarını bədnam ermənilər dövlət siyasətinə çevirmişdilər. Bu boş iddiaya, erməni yalanlarına, sərsəmləmələrinə tərəfdaşlıq edənlər isə cinayətkarlara hər cür yardım göstərir, onları daha da həvəsləndirirdilər.

Özlərinə tarixi Azərbaycan ərazilərində dövlət qurmuş erməni babalarının yolunu davam etdirən qəsbkarlar XX əsrin axırlarında da, əslində, pərakəndə deyil, xüsusi plan üzrə hərəkət edirdilər. 1980-ci illərin sonlarında həyata keçirdikləri qanlı cinayətlər də həmin məkrli plana uyğun idi.

Əzazil, zülmkar, vəhşi ermənilər xislətlərini gizlətmək üçün hər zaman dondan-dona girməyi bacarırlar. Zamanın onların mənfur planlarını reallaşdırmaları üçün uyğun olmadığını görəndə özlərini yazıq, aciz göstərir, münasib vaxtın gəlməsini gözləyirdilər.

1980-ci illərin axırlarında, SSRİ adlı imperiyanın çökməkdə olduğu bir vaxtda ermənilər yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdən öz xeyirləri, yəni özgə torpaqların hesabına ərazilərini genişləndirmək üçün istifadə etməyə çalışdılar. Azərbaycanlılara qarşı dəhşətli cinayətlər planlamış ermənilər, bir tərəfdən də öz əməllərini ört-basdır etməyə, xalqımızla bağlı beynəlxalq ictimaiyyətdə mənfi imic yaratmağa cəhd göstərirdilər. 1988-ci il fevralın sonlarında Sumqayıt şəhərində törətdikləri cinayət əməllərindən də ermənilər və onların havadarları Azərbaycanın əleyhinə istifadə etmək niyyətində idilər.

1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər öldü. Onlardan 26-sı erməni, 6-sı azərbaycanlı idi.

Təsdiqini tapmış istintaq materiallarından da aydındır ki, Sumqayıt hadisələri erməni millətçiləri tərəfindən törədilib. Sumqayıt əhalisi arasına yerləşdirilən və Azərbaycan dilini təmiz bilən ermənilərdən ibarət təxribatçı qruplar iğtişaşların baş verməsində xüsusi rol oynayıb. SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ermənilərlə birgə təşkil etdiyi və həyata keçirdiyi Sumqayıt hadisəsinə bunun üçün yetişdirilmiş və xüsusi təlimat verilmiş Eduard Qriqoryan başçılıq edib.

Faktlar heç bir suala, şübhəyə yer qoymur. Ermənistan rəhbərliyi bunu bilə-bilə yenə də yalanlara sığınmağa, həqiqəti pərdələməyə cəhd göstərib. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan XİN-in Sumqayıt hadisələri ilə bağlı bəyanatına dair şərhində bildirdiyi kimi, Ermənistan Xarici İşlər Nazirliyinin Sumqayıt hadisələri ilə bağlı 27 fevral tarixli bəyanatında ölkəmizə qarşı irəli sürdüyü iddialar tamamilə əsassız olmaqla yanaşı, tarixi faktların təhrif edilməsi və saxtalaşdırılmasıdır.

Ayxan Hacızadə qeyd edib ki, bu bəyanat 1980-ci illərin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirmək məqsədilə zorakılıq əməllərini, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Azərbaycan xalqına qarşı terroru, etnik zəmində təxribatları və hərbi gücdən istifadəni ört-basdır etmək cəhdləridir: "Ermənistan XİN-nə xatırladırıq ki, Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların və ekstremist təşkilatların öncədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi".

O da vurğulanıb ki, SSRİ Baş Prokurorluğu tərəfindən hadisə ilə bağlı cinayət işi açıldığı, nəticədə iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərdən ibarət qurbanların müəyyən edildiyi hər kəsə məlumdur: "Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, hadisələrin səbəbkarı, yürüşə başçılıq edən, şəxsən 6 nəfəri öldürən və erməni millətindən olan 3 qadına təcavüz edən şəxs milliyyətcə erməni olan Eduard Qriqoryan olub və onun barəsində Sumqayıtda yaşayan ermənilərin çoxsaylı şahid ifadələri toplanıb. Məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən E.Qriqoryan cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb".

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibinin şərhində nəzərə çatdırılıb ki, 1988-ci il 27-29 fevral tarixli Sumqayıt hadisələri ilə əlaqədar məhkəmə prosesinin nəticələri ilə bağlı təqsirkar bilinən 92 nəfər barəsində həbs cəzası verilib, həmçinin bir nəfər ölüm cəzası alıb.

Bildirilib ki, 1980-ci illərin sonlarında Ermənistan SSRİ-də azərbaycanlıların tarix boyu sıx yaşadıqları rayonlardan 300 minə yaxın əhalinin zorla qovulması zamanı 200-dən çox azərbaycanlının ölümündə təqsirli olanlar barəsində heç bir tədbir görülməyib.

Ayxan Hacızadə qeyd edib ki, bununla yanaşı, Azərbaycan ərazilərinə qarşı hərbi təcavüz zamanı Ermənistanın Xocalı daxil olmaqla, bir çox şəhər və kəndlərdə törətdiyi çoxsaylı müharibə və insanlıq əleyhinə cinayətləri törədənlərdən heç kimin bu günədək hüquqi məsuliyyətə cəlb olunmadığı Ermənistan XİN-ə məlumdur.

Ermənistan XİN-nə xatırladılıb ki, Azərbaycan Respublikası beynəlxalq səviyyədə tanınmış suveren ərazisinin bir hissəsində Ermənistanın onilliklər boyu davam edən hərbi işğalına son qoyub, ərazi bütövlüyü və suverenliyini təmin edib: "Ermənistan tərəfinin guya ermənilərə qarşı 2023-cü ildə "etnik təmizləmə" siyasəti həyata keçirildiyi barədə iddialar səsləndirmək əvəzinə, nəinki indiki Ermənistan ərazisində, eləcə də işğal dövründə azərbaycanlılar və Azərbaycan irsinə qarşı törətdiyi cinayət əməllərinə nəzər yetirməsi daha faydalı olardı".



*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 1 mart (№ 46).- S.8.